# Anar - ədəbiyyatımızın işıqlı görkəmi

Ədəbi dəyərlər həmişə ictimai zərurətlərə əsaslı zəmin yaradıb. Açığı, ədəbiyyatın xidmətində duran hər kəs bu prosesi aşkar müşhidə edir. Parlaq zəkalı, dünyaşöhrətli yazıçı, milyonlarla oxucunun qəlbinə əbədiyyət məkanı qurmuş Anarın - Anar Rzayevin ədəbi fəaliyyəti də cəmiyyət resurslarını özündə müfəssəl ehtiva edir. Onun yaradıcılığınının ədəbi və fəlsəfi-ictimai predmeti məhz bu rakursda diqqət çəkir. Əbəs yerə deyil ki, o, dəyərli şəxsiyyət, nüfuzlu yazıçı kimi məsuliyyət hissinin fövqünə qalxmağı çox ustalıqla bacarıb...

Mən Anarla heç vaxt qabaq-qənşər gəlməmişəm. Üz-üzə gələnlər etiraf edirlər ki, onun içindəki ləngəri, çılğın harayı, sakit-düşüncəli, təmənnasız məmnunluğu, bir də həqiqət hissini aydın hiss edə bilirlər. İnanıram ki, bu xoşbəxtlik mənə də nəsib olar...

Səmimi etiraf edək ki, Xalq yazıçısı Anarı (Anar Rzayevi) nəinki ölkəmizdə, dünyanın bir çox ölkələrində tanıyır, əsərlərini sevə-sevə oxuyurlar. Biz Anar müəllimi təkcə yazıçı kimi deyil, həm də dəfələrlə maraqla izlədiyimiz filmlərin ssenari müəllifi kimi sevirik. Xoş və alqışlanan haldır ki, Anar müəllim indiki qədər tanınmadığı vaxtlarında da, sonradan millət vəkili, Milli Məclisdə Komitə rəhbəri olanda da eyni mərhəmət və ehtirama layiq olub, indi də Azərbaycan Yazıçılar Birliyinin sədri kimi yenə də eyni (həmin) insani dəyərlərin daşıyıcısıdır. Bu, Allahın Anar müəllimə lütfü deyilsə, nədir?!

Bildiyimiz kimi, Anar müəllim görkəmli şəxsiyyətlər – Xalq şairləri, ilk növbədə, sadə və dəyərli insanlar Rəsul Rza və Nigar Rəfibəylinin övladıdır. Onun adının da elə, ata və anasının adlarının baş hərflərindən ibarət olduğu barədə fikirlər səslənir. Anar müəllim görkəmli yazıçıdır, ancaq dili zəngin xalq dildir; yəni, o, əsərlərində daha çox öz ana dilimizdəki sözlərdən istifadə edib, bir növ, dilimizin nizamını qoruyub. Təkcə onun öz ssenarisi əsasında çəkilmiş "Dədə Qorqud" filminə tamaşa etmək kifayət edər ki, Anar müəllimin dilimizə olan sədaqəti isbat olunsun. Əlbəttə, sadə sözlərlə dərin mətləblərə yetmək, böyük oxucu məhəbbəti qazanmaq yalnız Anar müəllim kimi qələm sahiblərinə müyəssərdir.

Mən bu kiçik yazımda Anar müəllim haqda oxucuya məlum olanları təkrar etmək fikrində deyiləm, sadəcə, onun insani xüsusiyyətləri və bu prosesin qələmə aldığı əsərlərdə hansı prizmadan səciyyə tapması barədə qısa məzmun vermək istəyirəm. Bəllidir ki, Anar 1991-ci ilin martında Yazıçıların IX Qurultayında yekdilliklə Azərbaycan Yazıçılar Birliyinin sədri seçilib. Qazandığı el sevgisi, oxucu məhəbbəti sayəsində 1997-ci il oktyabrın 30-da Yazıçıların X Qurultayında yekdilliklə yenidən Azərbaycan Yazıçılar Birliyinə sədr seçilib. Bu da, dediyim ki, xalqın, dövlətin Anar müəllimə olan inam və etibarından qaynaqlanır...

Anar Rzayev bir sıra dövlət və beynəlxalq mükafatların sahibidir. Onun əsərləri də saya-hesaba gəlmir: "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Dantenin yubileyi", "Macal", "Dədə Qorqud", "Əlaqə", "Ömür yolu", "Otel otağı", "Sənin nəğmən yaxşıdır", "Keçən ilin son gecəsi", "Asılqanda işləyən qadının söhbəti", "Yağışlı gecə", "Vahimə", "Yaxşı padşahın nağılı", "Gürcü familyası", "Sizi deyib gəlmişəm", "Ağ qoç, Qara qoç" və s. Bu əsərlər günümüzün aktual məsələlərini ehtiva edib və edir. Şəxsən, mən hər dəfə bu əsərləri oxuyanda Anar müəllimə xüsusi minnətdarlıq edirəm; çünki ilk növbədə özümü, həyatımı və taleyimi orada tapır, sabaha necə istiqamətlənməyi yenidən analiz edirəm.

Anar müəllim, yuxarıda dediyim kimi, həm də ssenaristdir. Onun ssenari müəllifi və quruluşçu rejissoru olduğu bədii filmlər – "Sözsüz mahnı" (film, 1972), "Evləri köndələn yar" (film, 1982), "İmtahan" (film, 1987), "Əlaqə" (film, 1989), "Təhminə" (film, 1993), "Otel otağı" (film, 1998), "Nigarançılıq" (film, 1998), "Cavid ömrü" (film, 2007), "Sübhün səfiri" (film, 2012) və s. ruhumuzun ən incə məqamlarına toxunur, ictimai zərurətləri sezməkdə bizə yardımçı olur.

Anar müəllimin ssenariləri dünya kinematoqrafiyasının da diqqətini cəlb edib. Bu mənada, ki-



noşünas Ayaz Salayev iddia edir ki, rejissor Nora Efronun çəkdiyi və baş rolda məşhur Hollivud kinoulduzu Tom Henksin oynadığı "Sizə məktub var" (You've Got Mail) filminin ssenarisi bizim Anarın "Mən, sən, o və telefon" əsəri əsasında qurulub.

Anar Rzayevin çöhrəsindəki abır-həya, əsl insan surəti onun həqiqi ziyalı, orijinal şəxsiyyət olmasından irəli gəlir. O, öz işıqlı şəxsiyyətində Rəsul Rza və Nigar Rəfibəyli kimi dühaların halal insan ovqatlarını təcəssüm etdirir. Hətta belə bir maraqlı fakt da var ki, Azərbaycanda Anar adını daşıyan ilk şəxs hamımızın böyük ehtiram göstərdiyimiz Xalq yazıçısı Anardır. Sonralar valideynlər öz övladlarına bu adı vermişlər.

Anar müəllimin insan surətində - işıqlı şöhrəsində fövqəl tərbiyə və elitar ziya var. Bu həmahəng çalar onun bundan sonra da daim sevilən, əbədiyyən yaddaşlarda qalacaq bir düha olacağına işarədir.

Anar Rzayev təkcə Azərbaycan ədəbi müstəvisində deyil, dünya ədəbi camesində də ideal güc, açıqfikirli, bir növ, tamlığı ilə dərk edilən qələm sahibi, parlaq zəkalı bir Adəm övladıdır. Əslinə qalsa, yüksək əhatələrdə bərqərar olan mövcudluqlar bizə sirr kimi görünsə də, Anar müəllim üçün onlar aşkar dəlil və həyat yoludur. O, ədəbiyyat atmosferinə az-az hallarda gələn istedadlardandır. Onun yazdıqları beynimizdə daha fərqli şəkildə əks olunur. Onun nitqindəki təzəlik, yenilik də bizə bir ayrı şəkildə görünür...

Anar müəllim əsərlərində insan davranışı, konstitusiya və ya qanunla təmin olunan insan azadlığı, insan hərəkətlərinin idarəsi barədə sətiraltı ədəbi nüanslar da ehtiva edib. Bu əsərlərdə əzablı qayğılar, insan və insan cəmiyyəti üçün maraq doğuran, lakin hərfən və mahiyyətcə fərqli ideyalar bərqərardır. Bu da oxucuda mənəvi, emosional qabiliyyətin artmasına zəmin yaradır. Burada insanın taleyi özünə tabe etmək və yaxud dəyişdirə bilmək zərurəti var. Həmçinin, burada klassika, nostalji hiss eyni müstəvidə, fəqət başqa anlamlardadır.

Anar müəllimin əsərlərini dərin idrakla əxz edəndə, anlamaq olur ki, insan Tanrı qatında hansı məcraya sığır. Biz onun Allah-İnsan qatında çox yüksək əhatədə olduğu qənaətindəyik. Onun dili, qəlbi, ideal təfərrüatı və inandırıcı fərqliliyi Allahdan gələn yəqinlikdir...

Anar Rzayev, fikir və düşüncəmizdə öz ovqatını qəfil bir sıçrayışla görünməzliyə sövq edən insan surəti kimi diqqət çəkir. Ürkək duyğulu anların onun üçün xüsusi bir özəlliyi var. O, bu əhatədə qəlb cilalayır. O, bu gün də bu işıqlı səmtdə ağ və qa¬ra sevdaların cəngindədir.

Anar müəllimin əsərlərində insan varlığı fərqli izharla təcəssüm tapır. O, bu müdhiş əsərlərdə Allahın dərki olan insanın maddi obyektində hansı ucalıqların qərar tutduğunu fəlsəfi təsirlə əxz edir, oxucuda bu pünhan əhatəyə maraq oyadır. Bir sözlə, Anar Rzayev insanı dərinliklər girdabında «can verən» qara hücrəyə bənzətmir, əksinə, fizioloji baxışla onu (formaca və surətcə) elə insan kimi təsvir edir.

Anar müəllimin həmişə epik məqsədi (öz timsalında) fövqəl tərbiyəli və intizamlı obrazlar yaratmaq olub. Apardığımız təhlillər də sübut edir ki, onun əsərlərində insan bir xəritədir; həyat, tale, (bir sözlə) vücudu əhatə edən hər şey orada özünü qabarıq göstərir. Həmçinin, ictimai asayiş, vətənpərvərlik aspekti də bu əsərlərin ayrılmaz hissəsidir. Həyata normal baxış Anar müəllimin insan surətinin, vətəndaş əzminin qlobal resursu olub və bu prioritetin özündə də onun dövlət etiqadı mühüm amil kimi diqqət çəkib və çəkir.

Digər tərəfdən, mənəvi dəyərlər, insan amili, sosial rifah və yüksəlişə zəmin yaradan dinamik gerçəklik də Anar müəllimin əsərlərində zərgər dəqiqliyi ilə cilalanır.

Anar həm də ədəbiyyatımızın işıqlı görkəmidir. Bu İşıq yetişən və gələcəkdə yetişəcək neçə-neçə ədəbi nəsil üçün bir təkan, bir ziyarətgahdır.

Fövqəl tərbiyəli və intizamlı, vətəndaş amallı Anar Rzayevə Allahdan can sağlığı diləyir, onun qələminin parıltısında bu gün də min illərin ehtişamının bərq vurduğuna şahidlik edirik.

Allah sizi qorusun, Anar müəllim!

**Hörmətlə:**

*Hüseyn* Məmmədov
*yazıçı*

